**Sevinc Fazil qızı Əliyeva**

**UOT:7:7.092: 338.2; JEL:Z20;Z21; Z28.**

# İdmanın sosial-iqtisadi inkişafa təsirinin artırılmasının nəzəri – metodoloji aspektləri

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə idmanın sosial-iqtisadi inkişafa təsirinin artırılmasının nəzəri-metodoloji aspektləri tədqiqindən ibarətdir. Bu məqsədlə, idmanın sosial-iqtisadi proseslərə təsiri araşdırılmış və təhlillər aparılmışdır. İdman iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsi imkanları baxılmışdır. Azərbaycanda mövcud idman infrastrukturundan, o cümlədən olimpiya komplekslərindən səmərəli istifadənin təmin edilməsi problemləri açıqlanmış, bu sahədə məsul orqanların fəaliyyətinin təkmilləşdirilməsi məsələləri ön plana çıxarılmışdır. İdman iqtisadiyyatının infrastrukturunun və mexanizmlərinin inkişaf etdirilməsinin vacibliyi əsaslandırılmışdır. Yaxın perspektivdə Azərbaycanda idmanın sosial-iqtisadi inkişafa təsirinin yüksəldilməsi üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası kimi – idmanın sosial-iqtisadi inkişafa təsirinin araşdırılması və müəyyənləşdirilməsi məqsədilə müxtəlif iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bu problemlər üzrə müxtəlif tədqiqatçıların əsərlərində verilmiş metodoloji yanaşmalara da müraciət olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti – məqalədə baxılmış problemlərin həlli üzrə əldə olunmuş elmi-praktiki nəticələrdən Azərbaycanda idmanın sosial-iqtisadi inkişafa təsirinin müəyyənləşdirilməsi üzrə yanaşmaların müəyyənləşdirilməsində istifadə olunmaq imkanları ilə bağlıdır. Tədqiqatın nəticələri – Azərbaycanda idmanın inkişaf etdirilməsi, idman infrastrukturundan istifadənin daha təsirli və səmərəli mexanizmlərinin hazırlanması istiqamətində tədbirlər kompleksinin işlənməsi və reallaşdırılması ilə əlaqəlidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – baxımından, qeyd etmək olar ki, Azərbaycanda idman iqtisadiyyatının inkişaf etdirilməsi ilə bağlı aparılan araşdırmalar olduqca məhduddur və buna görə də verilən materiallar orijinallığı ilə seçilir. Əsas elmi yenilik hazırkı şəraitdə Azərbaycanda idmanın sosial-iqtisadi inkişafa təsirinin təhlillərindən yanaşmaqla, bu sahədə real vəziyyətin qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi üçün elmi arqumentlərin formalaşdırılmasıdır. Ölkədə fəaliyyət göstərən Olimpiya komplekslərinin və digər idman qurğularının idarə olunması və səmərəli istifadə edilməsi üzrə yeni mexanizmlərin və fəaliyyət strategiyasının işlənməsinin və reallaşdırılmasının vacibliyi əsaslandırılmışdır.*

***Açar sözləri:*** *idman, idman iqtisadiyyatı, idmanın sosial-iqtisadi inkişafa təsiri, idman iqtisadiyyatının nəzəri-metodoloji aspektləri, idmanın inkişaf perspektivləri, olimpiya kompleksləri.*

## Giriş

Dünyada baş verən qlobal transformasiyalar və yeni trendlər bütün sahələrdə müasir çağrışları formalaşdırmışdır və bu məsələlər idmandan da yan keçməmişdir. İdman dövlətlərin başlıca sosial-iqtisadi və siyasi fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Təsadüfü deyildir ki, bir çox siyasətçilər və görkəmli ictimai xadimlər 21-ci əsri idman əsri adlandırırlar. Ənənəvi idman sahələrindən əlavə yeni fəaliyyət istiqamətləri, o cümlədən müxtəlif idman növləri, mərkəzləri və kütləvi idman tədbirləri diqqət çəkməkdədir [1]. Proqnozlara görə, 2024-cü ilə qədər dünya idman sənayesi bazarının ümumi həcmi 144 mlrd. ABŞ dolları səviyyəsində olacaqdır və proqnoz idman iqtisadiyyatının ildən-ilə artacağından və daha çox sosial-iqtisadi əhəmiyyət kəsb edəcəyindən xəbər verir. Yeni şəhərlər və yaşayış

*©Sevinc Fazil qızı Əliyeva Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, baş müəllim.*
*E-mail: sevinc aliyeva-80@list.ru.*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

massivləri salınarkən artıq qaçış zonalarının, velosiped yollarının nəzərə alınması və layihləndirilməsi, məhəllələrdə və müxtəlif digər yerlərdə idman meydançalarının, o cümlədən futbol, voleybol və basketbol meydançalarının yaradılması ənənəvi hal almışdır. İdman insanların əhval-ruhiyyəsinə, sağlamlığına, sosial-iqtisadi vəziyyətə əhəmiyyətli səviyyədə təsir etməkdədir. İdmanla məşğul olan insanların əmək məhsuldarlığının yüksək olması və kollektivdə daha çox fayda gətirməsi isə çoxdan özünü təsdiq etmişdir [2]. Eyni zamanda, ölkədə idmanın inkişaf etdirilməsi və xüsusilə bədən tərbiyyəsi istiqamətində düşünülmüş məqsədli tədbirlərin görülməsi, sosial-iqtisadi inkişafa təsir edən amillər nəzərə alınmaqla idmanın inkişaf etdirilməsi və bunlarla bağlı müvafiq dövlət proqramlarının hazırlanması, sistemli tədbirlərin görülməsi vacib şərtlərdəndir [3]. Məsələn, heç də sirr deyildir ki, insanların daha çox yaşadığı yaşayış massivlərində, kənd və qəsəbələrdə idman obyektlərinin olmaması daim sual doğurur. Şəhər yerlərində bununla bağlı yanaşmalar nisbətən fərqlidir, belə ki, şəhərin müxtəlif yerlərində idman qurğularının tikilməsi, idman məktəblərinin yaradılması, müxtəlif idman sağlamlıq mərkəzlərinin, idman klublarının fəaliyyət göstərməsi, idman mağazalarının olması, son illərdə isə idmanyönlü ictimai iaşə müəssisələrinin fəaliyyəti daha çox diqqət mərkəzinə düşmüşdür. Nobel mükafatı laureatı P.Samuelson mövcud resurslardan maksimum səmərəli istifadə edilməsi məsələlərinə müqayisəli şəkildə yanaşmağa, yəni bu sahədə faydalılığın müəyyənləşdirilməsi ilə bərabər həm də, çəkilən xərclərin özünü doğrultması məsələlərinə xüsusi önəm vermişdir [4]. Biz də bu fikirdəyik ki, idman əsasən sosial və ictimai xarakterli olması ilə bərabər, həm də iqtisadi xüsusiyyətlərə malikdir və onun təşkili nəticəsində iqtisadi effektlərin nəzərə alınması, ümumilikdə sosial-iqtisadi təsirin obyektiv olaraq baxılması vacib şərtlərdəndir. Ölkə səviyyəsində idmanın inkişafına yönələn səylər və yatırılan vəsaitlər, investisiya qoyuluşları, iri idman qurğularının tikilməsi nəticəsində insanların kütləvi şəkildə idmanla məşğul olmalarına müvafiq şəraitin yaradılması ilə bərabər, həm də xidmətlərin göstərilməsi hesabına əlavə dəyər mənbələri formalaşdırılır, büdcəyə daxil olan vəsaitlər artır, yeni iş yerləri yaranır, işsizliyin səviyyəsi azalır və ümumilikdə ölkədə sosial-iqtisadi gərginliyin sabitləşdirilməsi, sağlam həyat tərzinin təşviq olunması və daha güvənli cəmiyyətin formalaşdırılması işlərinə töhvələr verilir.

**Müasir dünyamızda idmanın sosial-iqtisadi inkişafa təsiri üzrə konseptual baxışlar və yanaşmalar**

Qeyd edək ki, idmanın sosial-iqtisadi təsirindən danışarkən, son 20-30 il ərzində dünyada uşaqlar və yeniyetmələr arasında pis vərdişlərin artmasının qarşısının alınması, narkomaniyaya meyilliliyin azaldılması, uşaqlar və yeniyetmələrin boş vaxtlarının səmərəli təşkili baxımından idman və bədən tərbiyyəsinin rolu maksimum artmışdır [5]. Xüsusilə, Covid-19 koronavirus pandemiyası dövründə insanların sosial izolyasiya şəraitində yaşamağa məcbur olması, idman mərkəzlərinin və klublarının fəaliyyətinin məhdudlaşdırılması və ya müvəqqəti dayandırılması uşaqların və yeniyetmələrin sosiallaşmasına, sağlam həyat tərzi istiqamətində inkişafına mənfi təsir göstərmişdir [6]. Uzun müddət idmanla fəal şəkildə məşğul olmaq imkanlarından məhrum olmuş insanların sosial-psixoloji durumu pisləşmiş, insanlar ətalətə meyillənmiş və necə deyərlər “tənbəlləşmişlər”. Belə şəraitdə müxtəlif xəstəliklərin daha tez özünü göstərməsi ehtimalı da artır. Əlbəttə, insanlar imkanlar məhdud olan yerlərdə belə, o cümlədən ev şəraitində müxtəlif fiziki hərəkətləri yerinə yetirməyə, idmanla məşğul olmağa çalışırlar, amma bunların məlum effektləri müasir infrastrukturdan ibarət idman mərkəzlərində və klublarında olan şəraitlə müqayisə edilməsi qeyri-mümkündür. Buna görə də, dövlət tərəfindən postpandemiya şəraitində idman siyasətinin yenilənməsi və ya maksimum təkmilləşdirilməsi tədbirlərinin intensivləşdirilməsinə, daha çox effekt verən tədbirlərin görülməsinə ciddi ehtiyac vardır [7]. Eyni zamanda, qlobal səviyyədə müxtəlif



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

problemlərin artması, o cümlədən ölümcül virusların yayılması kifayət qədər düşündürücüdür və insanların müxtəlif xəstəliklərə, viruslara qarşı təbii immunetlərinin artırılmasında idmanın rolu əvəzsizdir və buna görə də idmanın sosial-iqtisadi inkişafda əhəmiyyəti ildən-ilə artmaqdadır. Əksər dövlətlərin, o cümlədən ölkəmizin səhiyyə, sosial-müdafiə və idmanla bağlı konseptual və strateji yanaşmalarında idmanın digər üstün cəhətləri və effektləri ilə bərabər, onun sosial-iqtisadi inkişaf proseslərinə ayrıca diqqət yetirilir [8].

Hazırkı şəraitdə idman iqtisadiyyatının genişləndirilməsində və sosial-iqtisadi proseslərdə idmanın rolunun artırılmasında yüksək texnologiyalar, ilk növbədə "ağıllı" texnologiyalar xüsusi önəm kəsb edir. Məsələn, müasir dövrdə elə fəaliyyət sahələri vardır ki, burada iqtisadiyyat elementlərinin formalaşması və əlavə dəyər mənbələrinin yaranması yeni inkişaf meyilləri və drayverləri ilə bilavasitə bağlıdır. Belə sahələrdən biri də idmandır, idman bir tərəfdən əhalinin sağlamlığı üçün dövlətin prioritet hesab etdiyi istiqamətlərdən biri olmaqla bərabər, həm də iqtisadiyyat sahəsi kimi perspektivə malikdir. Düzdür, dünya tarixində və təcrübəsində peşəkar idman fəaliyyəti, qonorarlar hesabına idman yarışları, əmək haqqı və bonuslar müəyyənləşdirməklə idmançıların fəaliyyət göstərməsi uzun bir dövrü əhatə edir. İdmançıların gəlirlərinin uçotunun aparılması və vergiqoyma mənbələrinin müəyyənləşdirilməsi, onların dünyanın harasında fəaliyyət göstərmələrindən asılı olmayaraq vergilərə cəlb edilməsi praktikası və mexanizmləri hazırda geniş yayılmışdır [9]. Elə idmançılar vardır ki, dünyanın ən varlı insanları sırasındadırlar və iri vergi ödəyiciləri kimi diqqət çəkirlər. Bundan əlavə, idmanın çox güclü multiplikativ təsiri vardır, idman yarışlarından, müxtəlif idman sahələrində peşəkar idmançıların, məşqçilərin, mütəxəssislərin, menecerlərin və digər idman peşə sahiblərinin, klub təsisçiləri və prezidentlərinin əldə etdikləri kifayət qədər iri maliyyə resursları iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilir, investisiyalar formasında yatırılır, sahibkarlıq və biznesin inkişafında istifadə olunur, xüsusilə əmlak bazarına istiqamətləndirilir. Bunlar kifayət qədər çoxşaxəlidir, amma hesab edirik ki, dünya səviyyəsində belə, hətta yüksək inkişaf etmiş ölkələrdə belə idman iqtisadiyyatının baza prinsipləri tam olaraq müəyyənləşdirilməyib və bu sahədə metodoloji yanaşmaların təkmilləşdirilməsi, daha obyektiv statistik bazanın formalaşdırılması vacib şərtlərdəndir [10].



İndiki dövrdə – qlobal rəqəmsal transformasiyalar şəraitində fəaliyyət göstərən idman təşkilatları, klublar, federasiyalar, rəsmi idman qurumları idman iqtisadiyyatının daha nizamlı və sistemli şəkildə inkişaf etdirilməsi, uçotun və hesabatlılığın təmin olunması, maliyyə resurslarının hərəkəti üzrə şəffaflığın gücləndirilməsi baxımından daha böyük imkanlara malikdirlər [11]. Digər tərəfdən, idman fəaliyyəti ilə bağlı məsələlərin tənzimlənməsi, məlumatların və idmançıların siyahısının, fəaliyyət istiqamətinin, gəlirlərinin və xərclərinin sistemli şəkildə təmin olunmasında rəqəmsal texnologiyalardan istifadə etməklə daha yüksək nəticələrin əldə olunması, məvaciblərin hesablanması, əməkhaqqı ilə bağlı digər zəruri ödənişlərin edilməsi və məcburi fondlara, vergi öhdəlikləri üzrə köçürmələrin həyata keçirilməsi daha obyektiv və aydın şəkildə təmin olunan bilər [12]. Eyni zamanda, rəqəmsal texnologiyalar hazırkı şəraitdə bütün sahələrdə olduğu kimi, idmanda da önəmli funksiyaları yerinə yetirir. Belə ki, idman yarışlarının reyesterinin aparılması və dolğun məlumatların internet resurslarda yerləşdirilməsi, idman sahəsində çalışanlara zəruri məlumatların avtomatik olaraq yönəldilməsi, məşqlər zamanı idmançıların və o cümlədən məşqçilərin fəaliyyətinin rəsmilər tərəfindən müşahidə edilməsi, təlimlərin və treninqlərin keçirilməsində rəqəmsal texnologiyalardan fəal şəkildə istifadə olunması öz müsbət nəticələrini verməkdədir [13]. Qeyd edək ki, hazırda əvvəldə bildirdiyimiz kimi dünyada postpandemiya postulatlarının tələblərinə uyğun olaraq iqtisadiyyat sahələrinin sürətlə bərpa edilməsi və dirçəldilməsi prosesləri gedir. İnsanların depresiyadan çıxmalarında və öz fiziki fəallıqlarını bərpa etməkdə bədən tərbiyəsi və idmanın faydalılığı, həmçinin əhəmiyyəti hamımıza bəllidir

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

və xüsusilə cəmiyyətdə sağlam həyat tərzinin formalaşmasında bu sahə önəmli funksiyaları yerinə yetirir. COVİD-19 pandemiyasının təsirindən əmələ gələn mənfi əlamətlərin aradan qaldırılmasında və iqtisadi fəallığın bərpa edilməsində nəzərdə tutulan çoxşaxəli tədbirlər sırasında idmanın roluna da böyük əhəmiyyə verilib [14]. Digər tərəfdən, 2020-ci ildən başlayaraq çoxlu sayda kütləvi idman yarışları və turnirləri ləğv edilmiş, keçirilən idman tədbirlərində isə tamaşaçılar iştirak etməmişlər və yaxud məhdud sayda azarkeşlər meydançalara və idman zallarına buraxılmışlar.

Hesab edirik ki, yaxın dövrdə bu boşluqların və məhdudiyyətlərdən itirilənlərin bərpası üçün geniş həcmli işlər görüləcəkdir və bu proseslərdə rəqəmsal mexanizmlərdən, elektron xidmətlərdən geniş istifadə olunması qaçılmaz bir prosesdir [15]. Tədqiqatçı A.O.Ektov idmanda rəqəmsal texnologiyaların rolunu araşdırarkən rəqəmsal mexanizmlərin bu proseslərdə çoxşaxəli xarakter daşıdığını bildirmişdi: rəqəmsal mexanizmlər müxtəlif proseslərin inteqrasiyasını asanlaşdırır, o cümlədən idmançıların qeydiyyat məsələlərini tezləşdirir, reytinq siyahısını verir və idman tədbirinin daha yüksək səviyyədə idarə edilməsini təmin edir; rəqəmsallaşma idman təşkilatlarının əlaqələrini və kommunikativ münasibətlərini genişləndirir, proqram təminatı hesabına mürəkkəb vəzifələrin həlli mexanizmini işləyir və fəaliyyət proseslərinin səmərəliliyini yüksəldir; rəqəmsal mexanizmlər idman sahəsində idarəetmə proseslərinə və inzibati vəzifələrin səmərəli olaraq yerinə yetirilməsində əlavə üstünlüklər yaradır; rəqəmsal texnologiyalar idman klublarının və təşkilatlarının qarşılıqlı fəaliyyətinə əlavə stimullar verir, sponsorların və investorların cəlb edilməsində önəmli rol oynayır və idman iqtisadiyyatının formalaşdırılmasında, biznes analitikaların aparılmasında rəqəmsal texnologiyalar böyük səmərə verir [16].

Rəqəmsal mexanizmlər hesabına idman yarışlarının və turnirlərinin cəlbediciliyini təmin etmək, daha yüksək səviyyədə və keyfiyyətlə televiziya, həmçinin digər kütləvi informasiya vasitələrinə transliyasiya etmək və əlavə gəlir mənbəyi yaratmaq mümkündür və hazırda bu fəaliyyət istiqamətlərində 100 milyonlar və milyardlarla dollar iri maliyyə resursları dövriyyə edir. Elə peşəkar idmançılar vardır ki, onların transfer qiymətləri 200-300 milyon dollar səviyyəsində qiymətləndirilir və maraqlıdır ki, son onilliklərdə bu cür hallar kifayət qədər olmuşdur. Başqa sözlə, bir neçə idmançının transfer dəyəri dünyada mövcud olan onlarla ölkənin dövlət büdcəsindən çoxdur. Buradan belə bir qənaətə gəlmək olar ki, idman iqtisadiyyatının güclü və çoxşaxəli maliyyə mənbələri vardır, yetər ki, onlardan planlı və sistemli şəkildə istifadə mexanizmləri hazırlanaraq həyata keçirilsin və fəaliyyət strategiyaları formalaşdırılsın. Getdikcə idman turnirlərinin, xüsusilə beynəlxalq sahədə mükafat fondları on milyonlarla dollar həcmində ölçülən beynəlxalq turnirlərin sayı artmaqdadır [17]. Dünyada populyar idman turnirlərinin azarkeş dairəsi 500 milyon və hətta 1 milyarddan çox insanla ölçülür və bütün bu resurslar idman iqtisadiyyatının inkişafı üçün güclü perspektivlərin olmasının ifadəsi kimi baxıla bilər [18].

İdmanın inkişaf etdirilməsi istiqamətində məqsədli tədbirlərin görülməsi və müvafiq infrastrukturun yaradılması böyük əhəmiyyət kəsb edir. Buna görə də, müxtəlif idman növləri üzrə zəruri infrastrukturun formalaşdırılması maddi-texniki bazanın yaradılması, bu sahədə elmi-texniki yeniliklərdən, innovasiyalardan səmərəli şəkildə istifadə olunması tədbirlərinə ehtiyac vardır. Digər tərəfdən, dövlət tərəfindən idman bazarının formalaşdırılması və inkişaf etdirilməsi tədbirləri görülməli, stimullaşdırıcı mexanizmlər işlənilməli və tətbiq olunmalıdır. İdman iqtisadiyyatının müxtəlif sahələrinin və növlərinin spesifik cəhətləri nəzərə alınmaqla, onların inkişaf etdirilməsi üzrə fəaliyyət strategiyasına ehtiyac vardır. Ümumiyyətlə, idmanını müxtəlif sahələrində kiçik və orta biznes subyektlərinin fəaliyyətinin stimullaşdırılması, sağlam rəqabət mühitinin yaradılması və bazar münasibətlərinin formalaşdırılması bu istiqamətlərdə strateji əhəmiyyət kəsb edir. Göstərilən işlərin əsasında ölkədə sosial-iqtisadi



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişaf proseslərinin səmərəliliyinin artırılması məslələri daha çox yer aldıqda, idmanın inkişaf etdirilməsi, bu sahədə dünya təcrübəsinin dərindən öyrənilməsi və daha çox uğurların əldə edilməsi mümkünləşir.

**Azərbaycanda idmanın sosial-iqtisadi inkişaf proseslərində rolunun artırılması məsələləri və perspektivləri**

Yaxın illərdə idman iqtisadiyyatının formalaşmasında biz yeni inkişaf meyillərinin şahidi olacağıq. Maraqlıdır ki, Azərbaycanda da idmanın inkişafına dövlət səviyyəsində xüsusi önəm verilir və idmanın inkişafına maliyyə resursları ayrılır, olimpiya kompleksləri və digər müasir idman qurğuları istismara verilir. Azərbaycanlı idmançılar dünya səviyyəli turnirlərin və olimpiya oyunların daimi mükafatçıları və qalibləri sırasında yer alırlar. Çoxlu sayda idmançılarımız dünyanın peşəkar idman klublarında fəaliyyət göstərirlər və gəlirlər əldə edirlər. Hesab edirik ki, ölkəmizdə idman iqtisadiyyatının inkişaf etdirilməsi və bu proseslərdə rəqəmsal texnologiyalardan maksimum səmərəli istifadə edilməsi məqsədilə bir sıra məsələlərə xüsusi diqqət yetirilməlidir. Yəni, idman iqtisadiyyatının inkişafı istiqamətində mövcud resurslardan yetərincə istifadə edilməsi vacib şərtlərdəndir. Son illərdə Azərbaycanda idmanın inkişafı və onun sosial-iqtisadi inkişaf proseslərinə təsirini özündə ifadə edən bir sıra amillərə diqqət yetirmək istərdik:

- İdman və bədən tərbiyyəsi üzrə dövlət siyasəti ən yüksək səviyyədə prioritetlik təşkil etməkdədir;
- Ölkədə müxtəlif idman növlərinə, xüsusilə olimpiya idman növlərinə maraq kütləvi xarakter daşıyır;
- İdman təkcə sağlamlıq elementi və məşğuliyyət sahəsi kimi yox, həm də gəlir gətirən biznes və sahibkarlıq fəaliyəti sahəsi kimi daha çox dəyərləndirilməkdədir;
- Ölkənin iri şəhərləri ilə yanaşı regionlarda və ucqar nöqtələrdə belə idmanın müxtəlif növlərinə, xüsusilə milli idman növlərinə maraq daim artmaqdadır;
- İdmanın müxtəlif növləri üzrə peşəkar və həvəskar klubların sayı artmaqdadır;
- İstedadlı və bacarıqlı Azərbaycanlı idmançılar daha çox qazanc əldə etmək üçün çəkinmədən dünyanın müxtəli ölkələrində fəaliyyət göstərən idman klublarına cəlb olunur və ya yüksək mükafat fondu olan idman yarışlarında, fərdi döyüşlərdə iştirak edirlər;
- Azərbaycanda müasir gənc ailələr öz uşaqlarının gündəlik həyatında idmanın və ya hər hansı bir konkret olaraq məqsədli şəkildə idman növünün olmasına maraq göstərirlər, bəzi ailələr isə idmana məqsədli yanaşırlar və övladlarının gələcəkdə uğurlar əldə etməsi, qazanca malik olması amillərinə xüsusi diqqət yetirməkdədirlər;
- Azərbaycanda çoxlu sayda yüksək statuslu idman turnirlərinin və beynəlxalq yarışların keçirilməsi idmana olan marağı artırmaqda daha çox fayda verməkdədirlər.

Başqa mühüm bir məsələ bazar iqtisadiyyatı şəraitində və qlobal trendlərin yeniləndiyi bir dövrdə, iqtisadiyyatın strukturunun transformasiyalara məruz qaldığı vaxtda iqtisadiyyatın əlavə dəyər mənbələrinin formalaşdırılmasında və iqtisadi artımda bu mənbələrin yer almasına ciddi tələbat yaranmışdır. Müasir dövrdə yeni iqtisadiyyat sahələrinin bir hissəsi intellektual resurslarla bağlı olsa da, digər istiqamətlər, xidmətlər sahəsi, həm də idmanla, müxtəlif idman növləri, o cümlədən ekstremal idman növləri ilə bilavasitə bağlıdır. Dünyanın hər yerindən ekstremal idman infrastrukturunun olduğu bölgələrə turistlərin axını da vardır və bu da iqtisadi fəallığın yüksəldilməsinə səbəb olur. Son illərdə Azərbaycanda keçirilən müxtəlif dünya və Avropa çempionatlarının xarakterinə və onların keçirilməsi, təşkili və turnirlərdə baş verən proseslərə diqqət yetirsək, görmək mümkündür ki, həmin yarışlarda iştirak edən idmançılarla və texniki heyətlə yanaşı, ölkəmizə xaricdən çoxlu sayda azarkeşlər, kütləvi informasiya vasitələrinin nümayəndələri gəlir və bunlar da öz növbəsində idmanın



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

inkişafı ilə bərabər, həm də xidmət sahələrinin, o cümlədən nəqliyyat sektorunun inkişafına multiplikativ təsir göstərir. Qran-pri statuslu "Formula-1" yarışlarının Bakı şəhərinin qədim hissəsində keçirilməsi və bu nüfuzlu dünya idman yarışından olan görüntülərin 100 milyonlarla insanların televiziya ekranlarından və digər sosial şəbəkə vasitələrindən, həm də peşəkar idman kanallarından izləməsi ölkəmizə gəlir gətirməklə bərabər, həm də mühüm beynəlxalq əhəmiyyətə malikdir. Azərbaycanın nüfuzu və imici artır, ölkəmizin tarixi, mədəniyyəti, iqtisadiyyatı dünyanın müxtəlif yerlərində yaşayan milyonlarla insanlar üçün daha maraqlı olur və bir müddət sonra həmin insanlar ən azından turist kimi ölkəmizə gəlməyə can atırlar. Digər tərəfdən, analoji proseslərin baş verməsi idman yarışlarının və xüsusilə mühüm turnirlərin daha mütəşəkkil səviyyədə keçirilməsinə, vəsait yatırılmasına, bu idman tədbirlərinin kommersiyalaşdırılmasına və gəlirlilik prinsiplərinin formalaşdırılmasına əlavə motivasiyalar yaradır. Əslində həm də ölkəmizdə idmanın əksər sahələrinə maraq göstərilməsi və peşəkar idmançıların yetişməsi vətəndaşlarımız və onların ailələri üçün yeni gəlir mənbələri kimi də qiymətləndirilməlidir. Peşəkar idman klublarında və yaxud fərdi idmançı olaraq beynəlxalq turnirlərdə iştirak edərək pul mükafatları alan idmançılarımız eyni zamanda bizim vətəndaşlardır, ailə başçılarıdır, ailənin övladlarıdır, qardaş və bacılardır. Milli köklərə bağlılıq, ailə ənənələrinə sadiqlik idmançılarımızın əldə etdikləri gəlirlərin istifadəsində də öz əksini tapır.

Müşahidələrimiz və araşdırmalarımız əsasında deyə bilərik ki, əksər idmançılarımız əldə etdikləri pul mükafatlarını və gəlirləri əmlaklar almaqla bərabər, həm də yaxınlarının iş qurmalarına, biznes yaratmalarına, yaxud onların özlərinin qurduqları biznesin inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, əlavə dəyər mənbələrinin genişləndirilməsinə sərf edirlər. Hesab edirik ki, bu kimi məsələlərin öyrənilməsi vacibdir və yaxud ən azından ölkəmizdə statistikası aparılan ev təsərrüfatlarının gəlirlərinin strukturunda idmandan əldə olunan vəsaitlərin uçotuna da diqqət yetirilməsi yerinə düşərdi. Ölkəmizdə idman tədbirlərinin və ümumiyyətlə idman, bədən tərbiyəsi ilə bağlı tədbirlərin qrafiki tutulur, elanlar gedir və idman yarışları keçirilir. Kütləvi idman tədbirləri baş tutur, kütləvi idman yarışlarının keçirildiyi oyunlara biletlər satılır, vəsaitlər xərclənir, amma təəssüf ki, bunların hansı şəraitində baş verdiyi ictimaiyyətə və o cümlədən tədqiqatçılara məlum deyildir. Bu azmış kimi idman klublarının, o cümlədən peşəkar klubların fəaliyyəti və ümumi göstəriciləri üzrə statistik məlumatlar yoxdur, yəni statistika aparılmır. Məsələn ölkəmizdə fəaliyyət göstərən futbol, voleybol, basketbol, hətta milli idman növləri üzrə olan klublarda çoxsaylı əcnəbi idmançılar iştirak edirlər, onlara və eyni zamanda yerli idmançılara heç də az olmayan məvaciblər və qonorarlar verilir, klubların saxlanılmasına müxtəlif mənbələrdən iri məbləğdə vəsaitlər yönəldilir, idman yarışları üzrə tele yayımlar aparılır, reportajlar verilir, mərc oyunları təşkil olunur. Amma, təəssüf ki, bunlar haqqında rəsmi olaraq məlumat bazası hələ ki, ölkəmizdə formalaşdırılmır, statistikada isə bunlar öz əksini tapmır.

Ölkəmizin müvafiq olaraq idman və bədən tərbiyəsi tədbirlərini tənzimləyən, dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsini həyata keçirən, bu xərclərin təyinatı üzrə istifadə edilməsinə məsul olan nazirliyin və digər dövlət strukturlarının rəsmi saytlarında və dərc etdirdikləri məlumatlarında isə iqtisadi göstəricilər, idmana çəkilən xərclər və əldə edilən gəlirlər, idman klublarının maliyyə hesabatları haqqında məlumatlar yoxdur və ya onlar kifayət qədər azdır, bunlardan əlavə isə həmin məlumatlar dərc olunmur. Məhz buna görə də, ölkəmizdə idman iqtisadiyyatının real potensialının araşdırılması, analitik məlumatların toplanılması və qiymətləndirilməsi, idman iqtisadiyyatının ölkədə baş verən sosial-iqtisadi proseslərə təsirinin real mənzərəsini təhlil etmək və ifadə etmək vəzifələrinin öhdəsindən gəlmək xeyli çətindir. Əlbəttə, yenə qeyd etmək istərdik ki, həyatımızın bütün sahələrində rəqəmsal texnologiyalar və elektronlaşdırma geniş yer almaqdadır, uçotun aparılması və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

şəffaflığın təmin edilməsi prioritetlik təşkil edir. Analoji yanaşmaları bədən tərbiyəsi siyasətinin reallaşdırılmasında və idman tədbirlərinin keçirilməsində də təmin olunmalı və xüsusi olaraq nəzərdə tutulmalıdır. Son illərdə əksər dövlət strukturlarında göstərilən xidmətlər və fəaliyyət istiqamətləri elektronlaşdırılmaqdadır, şəffaflıq təmin edilməkdədir. İnformasiya cəmiyyətinin sağlam əsaslar üzərində inkişaf etdirilməsi və şəffaflığın dərinləşdirilməsi, bütün fəaliyyət sahələrində mühasibat maliyyə uçotunun dürüstlüyünə nail olunması, yəni hesabatlılığın təmin edilməsi tədbirləri görülməkdədir. Vergi inzibatçılığı maksimum rəqəmsallaşdırılmış, vergi məmuru və vergi ödəyiciləri arasında təmaslar minimuma endirilmişdir. Hesab edirik ki, idman yarışlarının xərcləri və gəlirləri üzrə şəffaflıq təmin edilməli və uçot məsələləri qaydaya salınmalıdır. İdman klublarının fəailiyyəti üzrə hesabatlar dərc edilməli, və statistik nəşirlərdə bunlar öz əksini tapmalıdırlar. Bütün bunlar idman iqtisadiyyatının formalaşdırılması və inkişafına əlavə stimullar verə bilər. İdmanın sosial-iqtisadi proseslərin inkişafında rolunun artmasına, idman sahibkarlığının inkişafına əlavə stimullar formalaşdırar.

**Nəticə**

Yaxın perspektivdə Azərbaycanda bütün istiqamətlərdə yüksək texnologiyaların tətbiq edilməsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, sosial-iqtisadi inkişafın daha səmərəli olaraq modelləşdirilməsi tədbirlərinə geniş yer veriləcəyi gözlənilir və bütün bunlar müasir dövrün çağrışları ilə uzlaşmalıdır. Fikrimizcə, bu proseslərdə idmanın sosial-iqtisadi inkişafa təsirinin artırılması və bununla bağlı dövlət idman siyasətinin təkmilləşdirilməsi tədbirlərinin görülməsinə ehtiyac vardır:

- idman sahəsində bazar iqtisadiyyatı münasibətlərinin inkişaf etdirilməsinə, idman iqtisadiyyatının formalaşdırılmasına, bununla bağlı kompleks tədbirlərin görülməsinə dair ölkədə konseptual baxışlar dövrün tələbləri ilə uyğunlaşdırılmalıdır;
- idmanın müxtəlif növləri üzrə sahibkarlığın inkişaf etdirilməsi tədbirləri həyata keçirilməli və bu sahədəki fəaliyyətin stimullaşdırılması, dövlət dəstəyi mexanizmləri hazırlanmalı və tətbiq olunmalıdır;
- idman fəaliyyətinin, xüsusilə peşəkar olaraq idman fəaliyyəti proseslərinin qanunvericilik bazasının təkmilləşdirilməsi, bu istiqamətdə hüquqi-iqtisadi əsasların beynəlxalq təcrübəyə uyğunlaşdırılması tələb olunur;
- ölkədə fəaliyyət göstərən idman klublarının, təşkilatların və federasiyaların fəaliyyətinin şəffaflığının təmin edilməsi məqsədilə rəqəmsal elektron portalların yaradılması və ölkə üzrə vahid reyesterin təşkili təmin edilməlidir;
- idman sahəsində baş verən proseslərin və fəaliyyətin uçotunun aparılması, iqtisadi göstəricilərin obyektiv olaraq toplanması və rəsmi olaraq nəşr edilməsi mexanizmləri işlənməli və bununla bağlı təsirli tədbirlər görülməlidir.



**Ədəbiyyat**


1. Проблемы развития физической культуры и спорта в новом тысячелетии: материалы VIII международной научно-практической конференции, Екатеринбург, 28 февраля 2019 г./ФГАОУ ВО «Рос. гос. проф. – пед. ун-т». 2019.-703 с.
2. Стаканова, Н.С. Основные факторы экономической эффективности применения физической культуры и спорта / Всерос. науч.-практ. конф., 13-17 мая 2019 г. Самара: Изд-во Самар. гос. экон. ун-та, 2019. – с. 332-337.
3. Ölkədə idman sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarını, o cümlədən federasiyaları və digər qurumları öz səlahiyyətləri daxilində akkreditə etmək. https://www.dxr.az/xidmet/344AEE77-C326-4DA0-855E-912EE073F339.
4. Самуэльсон, Пол Э., Нордхаус, Вилиам Д. Экономика: Пер. с англ. – Москва: ООО «И.Д. Вилиямс», 2012.–1360 с.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

5. Uşaq-gənclər idman məktəbləri və ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəblərinin nümunəvi əsasnaməsi. ARTN. https://edu.gov.az/az/esasnameler/771.
6. Спорт в условиях пандемии COVID-19. https://ach.gov.ru.
7. İdman siyasəti. ARGİN. https://mys.gov.az/idman/idman-siyasəti.
8. Səhiyyə, sosial müdafiə, idman. ARDSK. https://www.stat.gov.az/source/healthcare/.
9. Digital Media Sport: Technology, Power and Culture in the Network Society / eds.: B. Hutchins, D. Rowe. – New York: Taylor & Francis, 2013. – 274 p.
10. Инноватика физической культуры и спорта : материалы Всероссийской научно-практической конференции с международным участием, г. Москва 11 декабря 2019 г. / сост. Е.Н. Латушкина, А.Ю. Загородникова [Электронное издание]. – М.: РГСУ, 2020.
11. Малыгин, А. Спортивный маркетинг в цифровую эпоху // Вестник РМОУ, – 2020. № 3-4, – с. 14-21.
12. Rəqəmsal Media və Kommunikasiya proqramı. 05 aprel 2021. Azərbaycan Milli Olimpiya Komitəsi. https://www.olympic.az/news/reqemsal-media-ve-kommunikasiya-proqrami.
13. Гахария, Т.Н. Цифровые технологии в спорте: состояние и перспективы / Материалы V Междунар. науч.-техн. конф., Минск, 15-16 февр. 2018 г. Минск: БНТУ, – 2018. – с. 9-13.
14. После пандемии COVID-19 Перспективы восстановления экономики в Центральной Азии. https://www.oecd.org/eurasia/Beyond_COVID%2019_Central%20Asia%20_RU.pdf.].
15. Стеценко, Н.В. Цифровизация в сфере физической культуры и спорта: состояние вопроса / Н.В. Стеценко, Е.А. Широбакина // Наука и спорт: современные тенденции. –2019. № 1.
16. Эктов, А.О. Цифровые технологии в спорте: понятие и современное состояние. // Социальная, культурная и международная коммуникация молодежи. Минск: РИВШ, 2020. – с. 106-109.
17. Леднев, В. Цифровизация индустрии спорта: объективная реальность и возможные прогнозы // Вестник РМОУ, – 2020. № 3-4, – с. 22-27.
18. Дорощук, Е.С. Цифровые технологии спортивных медиа в современном информационном поле / Е.С. Дорощук, И. И. Рамазанов // Международный научно-исследовательский журнал. – 2021. № 9 (111) Часть 3. – с. 132-135.



***Севиндж Фазил кызы Алиева***

***Теоретико-методологические аспекты повышения влияния спорта на социально-экономическое развитие***

***Резюме***

*Цель исследования - является определение важнейших теоретико-методологических аспектов влияния спорта на социально-экономическое развитие в современном периоде. С этой целью исследованы и осуществлены анализы влияния спорта на влияние социально-экономического развития. Особо обращено внимание на совершенствование деятельности ответственных органов, отвечающие за деятельностью олимпийских комплексов и раскрыты проблемы, которые имеются в этой сфере и неэффективное использование олимпийских комплексов. Обоснована важность развития инфраструктуры и механизмов экономики спорта. Подготовлены рекомендации и даны предложения по повышению влияния спорта на социально-экономическое развитие в Азербайджане. Методология исследования - является использование экономических методов - анализ, синтез, сравнение и обращение по определению влияния спорта на процессы социально-экономического развития. Кроме того, рассмотрены подходы и методологические способы различных исследователей по этим проблемам. Практическая значимость исследования- является возможность и перспективы использования полученных научно-практических результатов по определению влияния спорта на социально-экономическое развитие Азербайджана и реализаций соответствующих мероприятий в этом направлении. Результаты исследования- прежде всего связано с разработкой комплексных мероприятий и их реализацией в направлении подготовки более действенных и эффективных механизмов по использованию спортивной инфраструктуры и развития спорта в*

*Азербайджане. Оригинальность и научная новизна исследования- прежде всего нужно отметить, что по проблемам развития экономики спорта и влияние спорта на социально-экономические процессы в Азербайджане слабо исследованы и по этим направлениям научных произведений мало. Поэтому материалы статьи отличаются оригинальностью. В качестве основной научной новизны можно рассмотреть аргументации важнейших аспектов и научных доводов по объективному анализу оценки влияния спорта на социально-экономическое развитие Азербайджана в современных условиях. Обоснована важность разработки новых стратегий и их реализация и разработка новых механизмов по эффективному и продуктивному использованию возможности олимпийских комплексов в том числе совершенствование системы управления по этим олимпийским комплексам.*

***Ключевые слова:*** *спорт, экономика спорта, влияние спорта на социально-экономическое влияние, теоретико-методологические аспекты экономики спорта, перспективы развития спорта, олимпийский комплекс.*

***Sevinj Fazil Aliyeva***

***Theoretical and methodological aspects of increasing the impact of sports on socio-economic development***

***Summary***

*Research purpose - is to study the theoretical and methodological aspects of increasing the impact of sports on socio-economic development in contemporary times. Therefore, the impact of sports on socio-economic processes was studied and analyzed. Opportunities for the formation and development of the sports economy were considered. The problems of ensuring the efficient use of the existing sports infrastructure in Azerbaijan, including the Olympic complexes, were highlighted, and the issues of improving the activities of the responsible bodies in this area were investigated. The importance of developing the infrastructure and mechanisms of the sports economy is justified. Recommendations and proposals were made to increase the impact of sports on socio-economic development in Azerbaijan in the short period. Research methodology - various economic methods, including analysis, synthesis, comparison, and generalization, were used to study and determine the impact of sport on socio-economic development. Methodological approaches to these problems were addressed in the pieces of various researchers. The importance of the application of the research - is related to the possibility of using the scientific and practical results obtained to solve the problems discussed in the article in determining approaches to determining the impact of sports on socio-economic development in Azerbaijan. The results of the research - are related to the development and implementation of a set of measures to develop sports in Azerbaijan, to develop more effective and efficient mechanisms for the use of sports infrastructure. The originality and scientific novelty of the research - it should be noted that the research on the development of the sports economy in Azerbaijan is very limited, and therefore the materials provided are distinguished by their originality. The main scientific innovation is the analysis of the impact of sports on the socio-economic development of Azerbaijan in the current situation and the assessment of the real situation in this field and the formation of scientific arguments for adequate measures. The importance of developing and implementing new mechanisms and action strategies for the management and efficient use of olympic complexes and other sports facilities operating in the country is substantiated.*

***Keywords:*** *sports, sports economy, the impact of sports on socio-economic development, theoretical and methodological aspects of sports economics, perspective for the development of sports, olympic complexes.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 25.04.2022.***
***Çapa qəbul olunub: 02.05.2022.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az